

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 244 (23.406)**

***25 dekabr 2019-cu il, çərşənbə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Rusiya-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Həmin gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Xəzər rayonunda yerləşən 2 saylı DOST mərkəzinin açılışı olub. Ölkə başçısı İlham Əliyev açılış mərasimində iştirak edib.

* * *

Dekabrın 24-də Bakının Nizami rayonunda şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün inşa olunan yaşayış binasında mənzillərin, həmçinin Qarabağ müharibəsi əlillərinə və onlara bərabər tutulan şəxslərə avtomobillərin təqdim olunması mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

* * *

Prezident İlham Əliyev həmin gün Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul edib.

* * *

Dövlətimizin başçısı, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 24-də Bakı Ağ Şəhərdə mərkəzi bulvar küçəsinin açılışında iştirak edib və Park Kvartalı ilə tanış olublar.



## Babək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Babək rayonunda icbari tibbi sığortanın tətbiqinin təmin olunması, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

1. Babək rayonunda icbari tibbi sığorta tətbiq edilsin.
2. Babək Rayon Mərkəzi Xəstəxanasına publik hüquqi şəxs statusu verilsin.
3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

3.1. bu Sərəncamın 2-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin Nizamnaməsini təsdiq etsin və 2020-ci il yanvarın 1-dən fəaliyyətini təmin etsin;

3.2. icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar Babək Rayon Mərkəzi Xəstəxanasının işçilərinin aylıq vəzifə maaşlarının 2020-ci il yanvarın 1-dən 50 faiz artırılmasını təmin etsin.

4. Bütün mərkəzi icra hakimiyyəti orqanlarına, aidiyyəti dövlət qurumlarına, Babək Rayon İcra Hakimiyyətinə tapşırılsın ki, bu Sərəncamdan irəli gələn vəzifələrin icrası ilə bağlı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə zəruri köməklik göstərilməsini təmin etsinlər.

5. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Səhiyyə Nazirliyi və Vergilər Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 dekabr 2019-cu il*

## Babək rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır





Ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycanda müasir səhiyyə sisteminin yaradılması və əhalinin keyfiyyətli tibbi xidmətlə təmin olunmasını diqqətdə saxlayır. Ölkəmizin iqtisadi qüdrətinin artması səhiyyənin davamlı inkişafına səbəb olmuşdur. Bu gün Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqi və bu sahədə idarəetmə sisteminin formalaşdırılması da görülən işlərin davamıdır.

Dekabrın 24-də Babək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov çıxış edərək demişdir ki, səhiyyə infrastrukturunun yenilənməsi, yeni ambulator və stasionar müalicə-profilaktika müəssisələrinin yaradılması muxtar respublikada aparılan genişmiqyaslı quruculuq işlərinin tərkib hissəsidir. Görülən ardıcıl tədbirlər tibbi xidmətin səviyyəsini xeyli yüksəltmişdir. Rayon mərkəzi və kənd səhə xəstəxanaları, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri müasir tələblər səviyyəsində qurulmuş, tibbi avadanlıqlarla təchiz edilmiş, ixtisaslı kadr potensialı yaradılmışdır. Həyata keçirilən səhiyyə islahatlarının ən mühüm cəhətlərindən biri də muxtar respublikada icbari tibbi sığortanın tətbiqidir. Niyazi Novruzov yaradılan şəraitə görə səhiyyə işçiləri adından minnətdarlıq etmişdir.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov demişdir ki, muxtar respublikada icbari tibbi sığorta mərhələli şəkildə həyata keçirilir. Ötən dövrdə icbari tibbi sığortanın tətbiq olunduğu rayonlarda 148 ürək əməliyyatı və invaziv müdaxilə, 55 göz, 17 ginekoloji, 55 doğum, 15 keysəriyyə, 15 travmatoloji, 141 ümumi cərrahi əməliyyat və 54 terapevtik stasionar müalicə olmaqla, ümumilikdə, 500 həyativacib, dəyəri yüksək tibbi müdaxilə icra edilmişdir. Babək rayonunda da icbari tibbi sığortanın tətbiqi sahəsində lazımi tədbirlər görülmüş, keçirilən təlim və seminarlarda tibb işçilərinə "Səhiyyə informasiya idarəetmə sistemi", sığortaolunanların qeydiyyatı, onlara göstəriləcək tibbi xidmətlər, göstərilən tibbi xidmətlərə dair aylıq hesabatların tərtibolunma qaydaları barədə məlumat verilmiş, nümunəvi hesabat formaları təqdim edilmişdir. Samiq Sadıxov muxtar respublikada icbari tibbi sığortanın tətbiqi istiqamətində aparılan işlərə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Tibb bacısı Həmidə Quliyeva minnətdarlıq edərək demişdir ki, 2014-cü ildə Babək Rayon Mərkəzi Xəstəxanasının yeni binası istifadəyə verilmiş, müasir tibbi avadanlıqlar qurulmuş, əhaliyə nümunəvi tibbi xidmət göstərilməsi üçün hər cür şərait yaradılmışdır. İcbari tibbi sığorta sisteminin tətbiq olunması isə tibbi xidmətlərin səviyyəsinin daha da yüksəldilməsinə imkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov icbari tibbi sığortanın tətbiqi münasibətilə rayon əhalisini və tədbir iştirakçılarını təbrik edərək demişdir: İcbari tibbi sığortanı qısa vaxtda tətbiq etmək mümkün deyil. Muxtar respublikada bu işə müasir tibbi avadanlıqlarla təmin olunmuş səhiyyə müəssisələrinin istifadəyə verilməsi ilə başlanılmış, tələbata uyğun ştat strukturu təsdiq edilmiş, ixtisaslı kadr hazırlığı diqqətdə saxlanılmışdır. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində müasir tədris şəraiti yaradılmış, xəstəxana istifadəyə verilmiş, Naxçıvan Tibb Kolleci yenidən qurulmuşdur. Həmçinin muxtar respublikada beynəlxalq təcrübə öyrənilmiş və icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır. Artıq muxtar respublikada icbari tibbi sığortanın tətbiqi sahəsində nailiyyətlər əldə olunur. Muxtar respublika sakinləri icbari tibbi sığortanın baza zərfinə daxil olan 1525 adda tibbi xidmətdən yararlanırlar. Babək Rayon Mərkəzi Xəstəxanasında isə bu tibbi xidmətlərdən 641-i tətbiq olunacaqdır. Yaradılan şərait və peşəkar tibbi heyətin formalaşması bu işlərin uğurla həyata keçirilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri demişdir: Babək rayonunda 76 mindən artıq əhali yaşayır.

*Ardı 2-ci səhifədə*

Əhaliyə rayon mərkəzi xəstəxanası, 2 sahə xəstəxanası, 13 həkim ambulatoriyası və 18 feldşer-mama məntəqəsi vasitəsilə tibbi xidmət göstərilir. 500-ə yaxın tibbi heyət əhalinin sağlamlığı keşiyində dayanır. Babək Rayon Mərkəzi Xəstəxanasında 25 adda 46 ədəd yeni tibbi avadanlıq və ləvazimatlar quraşdırılmışdır ki, bu da icbari tibbi sığortanın uğurla həyata keçirilməsinə imkan verəcəkdir. Ümumilikdə isə Babək rayonundakı bütün səhiyyə müəssisələrində icbari tibbi sığortanın tətbiqi mümkündür. Bu sahədə işlər müasir tələblər nəzərə alınmaqla davam etdiriləcəkdir.

Ali Məclisin Sədri əhaliyə lazımi səviyyədə tibbi xidmətin göstəriləcəyinə əminliyini bildirmiş, kollektivə uğurlar arzulamış və yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, xəstəxanada yenidənqurma işləri aparılmış, palatalar mərkəzi oksigen sistemi ilə təmin edilmiş, Təcili tibbi yardım şöbəsi yenidən təşkil edilmişdir. Göstərilən tibbi xidmətin keyfiyyətini yüksəltmək məqsədilə yeni ultrasəslə müayinə cihazı, spirometr, portativ süni tənəffüs aparatı, transport küvez, oftalmoloji proyektor və digər tibbi avadanlıqlar quraşdırılmışdır. Sürətli internetlə təmin olunan mərkəzi xəstəxanada, kənd sahə xəstəxanalarında və ambulatoriyalarda 50 kompüter qurulmuş, mərkəzi serverə qoşulmuş “Medisoft” Səhiyyə informasiya idarəetmə sistemi yaradılmışdır. Hazırda xəstələrin qeydiyyatı Səhiyyə informasiya idarəetmə sistemi vasitəsilə aparılır. Xəstəxanada İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin də qeydiyyat məntəqəsi fəaliyyət göstərir.



## Babək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirə keçirilmişdir



Dekabrın 24-də Babək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir ki, muxtar respublikada icbari tibbi sığortanın tətbiqi üçün hərtərəfli şərait yaradılmışdır. Babək rayonunda yanvarın 1-dən etibarən icbari tibbi sığortanın tətbiq olunması da imkan verəcəkdir ki, əhaliyə daha keyfiyyətli səhiyyə xidməti göstərilsin. Babək Rayon İcra Hakimiyyəti, Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi üzərlərinə düşən vəzifələrin icrasını diqqətdə saxlamalı, maarifləndirmə işlərinə üstünlük verilməli, yerlərdə icbari tibbi sığortanın əhəmiyyəti əhaliyə ətraflı izah olunmalıdır.

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin baş direktoru Samiq Sadıxov, Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini – maliyyə naziri Səbuhi Məmmədov və Naxçıvan Muxtar Respublikasının Baş naziri Əlövsət Baxşıyev muxtar respublikada icbari tibbi sığortanın tətbiqi sahəsində görülən işlər barədə məlumat vermişlər.

Ali Məclisin Sədri 2020-ci il yanvarın 1-dən etibarən Naxçıvan şəhərində və Culfa rayonunda da icbari tibbi sığortanın tətbiqi barədə aidiyyəti üzrə tapşırıqlar vermişdir.

Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov və rayon mərkəzi xəstəxanasının baş həkimi Asiman Yusifov yaradılan şəraitə görə rayon əhalisi və tibb işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## İstehlak bazarına nəzarət edilir

Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi 2019-cu ilin noyabr ayında yerli məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlı olması üçün keyfiyyət standartlarına əməl edilməsinə nəzarət işini, o cümlədən təsərrüfat subyektlərinin istehsal-xidmət şəraitinin və məhsul göstəricilərinin standartların tələblərinə uyğunluğunu diqqətdə saxlamış, ümumilikdə, məhsul nümunələrinin 87 halda, o cümlədən qida məhsullarının 72 halda keyfiyyət göstəricilərinin yoxlanılması təmin olunmuşdur.

Yerli istehsal məhsullarının keyfiyyətinin qorunması məqsədilə 83 qida istehsalı müəssisəsinə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüşdür. Məhsulların sertifikatlaşdırılmasına dair elektron xidmət vasitəsilə daxil olmuş 5 müraciət operativ icra olunmuş, 90 ictimai iaşə və xidmət sahəsinə, 17 ət satışı mağazasına maarifləndirmə xarakterli baxış keçirilmişdir. Həmçinin meyvə-tərəvəz və onlardan hazırlanmış məhsulların keyfiyyətinin nəzarətdə saxlanılması işi çərçivəsində məhsulların 12 halda keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra sertifikatlaşdırılmış, 3 satış obyektindən götürülmüş məhsulların 3 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Uşaq bağçalarının, məktəblərin, xəstəxanaların və digər təhsil və səhiyyə müəssisələrinin yerli məhsullarla təmin edilməsi və alınan qida məhsullarının keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılması istiqamətində 32 bufet və yeməkxanada monitorinqlər, 7 səhiyyə müəssisəsinin yeməkxanasında yerli məhsullarla təminatın üstünlüyü barədə maarifləndirici tədbirlər aparılmış və aşkar olunmuş nöqsanlar yerində aradan qaldırılmışdır. Eləcə də standartların tələblərinə uyğun fəaliyyətin qurulması məqsədilə 45 bərbərxanada maarifləndirmə xarakterli monitorinqlər təşkil edilmiş, aşkarlanan çatışmazlıqların aradan qaldırılması təmin olunmuş, 19 təsərrüfat subyektində təmir işləri aparılmışdır.

Fövqəladə Hallar Nazirliyinin və Dövlət Gömrük Komitəsinin nümayəndələri ilə birgə fəaliyyətin təmin olunması üçün iş planı hazırlanmış, muxtar respublikada fəaliyyət göstərən 52 təsərrüfat subyektində müşahidə xarakterli monitorinqlər aparılmış, təsərrüfat subyektlərinə sənaye üsulu ilə hazırlanan və təhlükəsizlik sistemi olan elektrik, qaz cihazlarının satışının həyata keçirilməsi barədə bildirişlər, qazla işləyən məişət cihazları üçün təhlükəsiz istifadə üzrə təlimatlar təqdim edilmişdir. Ümumilikdə, idxal olunan 1652 məişət qaz cihazına baxış keçirilmiş, təhlükəsizliyi təmin olunmayan 24 məişət qaz cihazının idxalına və satışına icazə verilməmişdir.

Noyabr ayında standartların tələblərinə uyğun olmayan 12 min 278 manat dəyərində keyfiyyətsiz və kontrafakt məhsullar satışdan çıxarılmışdır.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi***

## Qanunsuz miqrasiyanın qarşısı alınır

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər noyabr ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 34 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barələrində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 719 müraciət daxil olub. Daxil olan müraciətlərdən 155-i əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazələrin verilməsi və yenidən rəsmiləşdirilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir. Həmçinin olduğu yer üzrə qeydiyyatla bağlı 564 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 249-u elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Təlim keçirilir

Dünən Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində Avropa İttifaqı və BMT İnkişaf Proqramı tərəfindən maliyyələşdirilən və Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan “Qadınların dayanıqlı inkişafı üçün səlahiyyətləndirilməsi” layihəsi çərçivəsində maliyyə savadlılığı üzrə “Gələcəyini planlaşdır” adlı təlimə start verilib.



15 nəfərin iştirak etdiyi təlimin ümumi məqsədi ailə büdcəsinin idarə edilməsi, qənaət vərdişlərinin yaradılması, ağıllı borcalma (kredit) üzrə düzgün qərarların verilməsi, maliyyə məqsədlərinin müəyyənləşməsi üzrə bilik və bacarıqların əldə olunması, gələcəkdə təlimçilər tərəfindən bu istiqamətdə muxtar respublikada təlimlərin keçirilməsidir.

Mərkəzin direktoru Sevinc Cabbarova təlimin aktuallığı və əhəmiyyəti barədə danışıb.

Sonra Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmova tərəfindən təlim materialı təqdim olunub.

Qeyd edək ki, təlim 2 gün davam edəcək, sonda iştirakçıların akkreditasiyası keçiriləcək, müvəffəqiyyət qazananlara sertifikatlar təqdim olunacaq.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Tələbələrlə görüş olub

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində Naxçıvan Dövlət Universitetinin nazirliyin hamiliyinə verilmiş Memarlıq və mühəndislik fakültəsinin Ekologiya mühəndisliyi ixtisası üzrə IV kurs tələbələri ilə görüş olub.***



Tədbiri giriş sözü ilə Ekologiya və Təbii Sərvətlər naziri Mayis Əliyev açaraq bildirib ki, Ali Məclis Sədrinin hamiliklə bağlı imzaladığı müvafiq sərəncamlara uyğun olaraq ötən dövr ərzində “Naxçıvan Muxtar Respublikasının təbii sərvətlərinin öyrənilməsi, qiymətləndirilməsi, istifadə olunması və bu sahədə kadr hazırlığı”, “İdeyadan başlanğıca” devizi altında startap layihələrinin hazırlanması məsələləri ilə bağlı Naxçıvan Dövlət Universiteti ilə birlikdə seminar-müşavirələr keçirilib. Ali təhsil ocağının Memarlıq və mühəndislik fakültəsinin Ekologiya mühəndisliyi və Geologiya mühəndisliyi ixtisasları üzrə təhsil alan tələbələrinin praktik biliklərinin və təcrübələrinin artırılması məqsədilə tədbirlər reallaşdırılıb.

Qeyd olunub ki, kadrların hazırlanması və tələbələrin təcrübi biliklərinin artırılması sahəsində keçirilən tədbirlər çərçivəsində, bu il noyabrın 12-dən dekabrın 24-dək olan müddətdə Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Ekologiya mühəndisliyi ixtisası üzrə IV kurs tələbələri nazirlikdə və aidiyyəti qurumlarda istehsalat təcrübəsi keçiblər. Gələcəyin ekoloq mütəxəssisləri ölkəmizdə, o cümlədən muxtar respublikamızda həyata keçirilən dövlət ekoloji siyasətinin məqsədi və bu sahədə qazanılmış uğurlar haqqında məruzələr dinləyiblər. Tələbələr istehsalat təcrübələri dövründə nazirliyin aidiyyəti qurumlarının iş fəaliyyəti ilə də yaxından tanış olublar.

Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin dekanı Cavanşir Zeynalov, universitetin müəllimi Leyla İbrahimova, nazirliyin şöbə müdiri Kamran Əliyev, təcrübəçi tələbələrdən Xanım İbrahimova çıxış ediblər.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb, onlara təşəkkürnamələr verilib.

**✍ Nail ƏSGƏROV**

# Oxucu məktubları

*Minnətdarlıq*

## Məscidlər mənəvi kamilləşmə, birlik, paklıq və halallıq ünvanıdır



*Hörmətli redaksiya!*

Tarixboyu İslam sivilizasiyasının mərkəzlərindən biri olan qədim yurdumuzda mənəvi dəyərlərin qorunmasına da xüsusi diqqət yetirilir. Dini dəyərlərin mahiyyətinə uyğun təbliğ olunması, dini-tarixi abidələrin bərpası istiqamətində görülən ardıcıl işlər hər kəsi sevindirir, rəğbət və minnətdarlıq hissi ilə qarşılanır. Onu da qeyd edim ki, məscidlər mənəvi kamilləşmə, birlik, həmrəylik, paklıq, halallıq və yardımlaşma kimi dəyərlərin təbliğ olunduğu məkan, eyni zamanda elm, maarif ocağıdır. Sevindirici haldır ki, muxtar respublikamızda həm də yeni məscidlərin tikilməsinə xüsusi əhəmiyyət verilir.

Ötən günlərdə kəndimizdə də yeni bir məscidin istifadəyə verilməsi bütün kənd sakinlərinin sevincinə səbəb oldu. Gözəl memarlıq nümunəsi olan bu məscid kəndimizin hüsnünə daha bir yaraşıq gətirdi. Onu da deyim ki, burada dini ibadət, ayinlərin rahat şəkildə yerinə yetirilməsi üçün hər cür şərait yaradılıb. Bütün bunlar kənd sakinlərinə verilən ən böyük hədiyyədir.

Həkim və dini ibadətlə məşğul olan biri kimi deyə bilərəm ki, insanların milli və dini dəyərlər hesabına mənəvi kamilləşməsi fiziki sağlamlıqdan da çox əhəmiyyətli, mühüm məsələdir. Sevinirəm ki, muxtar respublikamızda bu məsələ dövlətimizin daim diqqətində saxlanılır. Yaradılan şəraitə və göstərilən qayğıya görə kənd sakinləri adından Ali Məclisin Sədrinə dərin minnətdarlığımı bildirirəm.

**Əhəd CƏFƏROV**
***Ordubad rayonu, Dırnıs kənd sakini***

*Razılıq*

## Cansağlığı hər kəsin ən böyük arzusudur



*Hörmətli redaksiya!*

Dövlətimizin biz muxtar respublika sakinlərinə göstərdiyi qayğının daha bir nümunəsi insan amilinə xidmət edən icbari tibbi sığortanın tətbiqidir. Bu, insanların rifah halının yüksəldilməsinə yönəldilmiş, onların keyfiyyətli tibbi xidmət və dərmanlarla təmin olunmasına yardım edən bir sistemdir. Eyni zamanda onların hər hansı bir xəstəliyinin vaxtında aşkar edilməsinə, külli miqdarda xərc çəkmədən müalicə oluna bilmələrinə imkan verir. Mən də dövlət qayğısından bəhrələnən muxtar respublika sakinlərindən biri olduğum üçün bu məktubu sizə ünvanlamaq qərarına gəldim.

Yaxın günlərdə ürəyimdəki ağrılar daha da güclədiyindən rayon xəstəxanasına müraciət etmişdim. Məlum oldu ki, ürəyimlə bağlı səhhətimdə yaranan problemin səbəbini angioqrafiya müayinəsi ilə aşkar etmək olar. Bu isə Naxçıvan şəhərində yerləşən xəstəxanalarda mümkündür. Rayonumuzdakı həkimlərin məsləhətindən sonra İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin xəstəxanadakı nümayəndəsi ilə tanış olub ona gəlişimin səbəbini dedim. Düzü, indiyə qədər bu barədə məlumatsız idim. Amma öyrəndim ki, icbari tibbi sığorta insanların ağır xəstəliklər, qəfil hadisələr nəticəsində həyati təhlükələrlə üzüzə qaldıqları zaman həm pul, həm də vaxt itkisinə yol vermədən, ən qısa zamanda, rahat şəkildə sağlamlıqlarına qovuşmaları üçün çox əhəmiyyətli imiş. Lazım olan sənədlərim tezliklə hazırlandı və Naxçıvan Diaqnostika Müalicə Mərkəzinə göndəriş verildi. Orada agentliyin işçilərinə yaxınlaşıb göndərişi təqdim etdim. Onlar mənə bir övlad qayğısı ilə yanaşıb bütün lazım olan sənədləşmələri bitirdikdən sonra müayinədən keçməyimə kömək etdilər.

Artıq özümü çox yaxşı hiss edirəm. Mən Vətən uğrunda bir oğul itirmişəm, amma həmişə olduğu kimi, bu gün də gördüm ki, bir oğlumu torpaq uğrunda fəda etməklə yüzlərlə oğul-qız qazanmışam.

Ulu Tanrı dövlətimizi və rəhbərimizi qorusun!

**Xurşud BƏYLƏROVA**
***Kəngərli rayonu, Qıvraq qəsəbə sakini***

## Yaradılan şərait insanları doğma yurda bağlayır

*Salam, hörmətli redaksiya!*

Bu məktubu sizə yeddinci sinif şagirdi olan qızımın köməyi ilə yazıram. İllər öncə – 90-cı illərin əvvəllərində kolxoz və sovxozlar dağılmış, bütün sənaye müəssisələri bağlanmışdı. Bir çoxları kimi, mən də işsiz qalıb "ailəmi ağ günə çıxarmağın" yolunu başqa diyarlara üz tutmaqda görmüş, elə bu məqsədlə də qardaş Türkiyəyə getmişdim. Həmin illərdə başqa əlacım olmadığı üçün bu qərara gəlmiş, ailəmi, övladlarımı anamın himayəsinə qoymalı olmuşdum. Adam ehtiyac içərisində qalanda bilmir ki, necə eləsin vəziyyətdən çıxış yolu tapsın. Nə isə, deyəsən, mətləbdən çox uzaqlaşdım. Sözümün canı odur ki, qərib diyarda günüm çətin, şəraitsiz yerlərdə işləməklə keçir, qazancım isə az olurdu. Bütün bunlara sinə gərdiyim gecə növbələrinin birində yorğunluqdan yol verdiyim bir xəta sağ əlimin kəsici alətlə zədələnməsi və barmaqlarımı itirməyimlə nəticələndi. Düzdür, işlədiyim şirkətin rəhbəri xəstəxana xərclərimə qismən kömək etdi, amma əmək qabiliyyətimi itirdiyim üçün daha orada qala bilməzdim...

Mən 10 ildən artıq bir zaman ərzində doğma Naxçıvana çox az gəlib-gedirdim. Son iki ildə isə ümumiyyətlə, gələ bilməmişdim. Qayıdanda burada çox şeylərin dəyişdiyinin şahidi oldum. Artıq bir neçə ildir ki, öz yurdumdayam. Kəndimiz nə qədər müasirləşib. Dövlət tərəfindən həyatımə hasar çəkilib, uçulub-dağılmaqda olan bəzi tikililərim təmir edilib.

Uzun illərdir ki, ünvanlı sosial yardım alır, sözün düzü, nə vaxta qədər "yükümüzü" başqaları çəkəcək deyə düşünürdüm. Fərdi təsərrüfatımı qurmaq üçün Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etdim. Onu da xüsusi bildirmək istəyirəm ki, orada gördüyüm xidmət yüksək səviyyədə idi. Necə deyərlər, nazirliyin işçiləri hərəni öz dilində danışdırır, dərdini dinləyir, problemlərini aradan qaldırmaq üçün əllərindən gələni edirlər. Yaxın günlərdə fiziki imkanlarımın məhdudluğu nəzərə alınaraq mənə istəyimə uyğun olaraq yanı balalı bir inək verildi. Bu da ailəmə böyük maddi kömək oldu. Dövlətimizin hər zaman öz vətəndaşının yanında olmasını hiss etmək, həqiqətən də, insana böyük qürur yaşadır.

Mən bütün bunlara görə ailəmiz adından Ali Məclisin Sədrinə dərin minnətdarlığımı bildirirəm.

**Rəhim MƏHƏRRƏMOV**
***Şərur rayonu, Ərəbyengicə kənd sakini***

## Ürəyi dağlardan böyük olan insanlar

*Hörmətli redaksiya!*

Bu məktubu sizə Azərbaycanın qədim guşələrindən biri olan Bərdədən yazıram. Minnətdarlıq hisslərimi bir məktuba sığdırmaq nə qədər mümkün olacaq, bilmirəm, amma bunları yazmağı mənəvi borc hesab etdim.

Altı aydan artıqdır ki, nəvəm Naxçıvan Muxtar Respublikasında hərbi xidmətdədir. İlk dəfə buraya onun andiçmə mərasimində gəlmişdim. Həmin gün səhər Naxçıvan-Bakı avtobusu düz deyilən saatda ünvana çatdı. Andiçmədən sonra şəhəri gəzdik. Sözün düzü, bu qədim və müasir, eyni zamanda səliqəli və təmiz şəhər məni ovsunladı.

Üç gün qalıb nəvəmi Vətənimizin bu mərd guşəsinə əmanət edib evimizə qayıtdım. Aradan bir-iki ay keçdikdən sonra yenidən onu görməyə gəlmişdim. Qarşıdan gələn Yeni il münasibətilə bir az sovqat da gətirmişdim. Nə isə sözümün canı ondadır ki, qonaq olduğum evdən çıxıb şəhərarası marşrutla hərbi hissəyə yollandım. Yolboyu şəhərdəki gözəllikləri seyr edə-edə mənzilbaşına çatdım. Hərbi hissəyə yaxın dayanacaqda endim. Baxdım ki, içərisində pul və sovqat olan çantamı götürməyi unutmuşam. Tanımadığım bir şəhərdə çarəsiz vəziyyətdə çaşıb qalmışdım. Necə əlacsız vəziyyətə düşdüyümü ancaq belə bir hadisə ilə qarşılaşan bilər. Ətrafımda dayanan bir xanım tələşlı olduğumu görüb nə baş verdiyini soruşdu. Mən başıma gələnləri ona danışanda "narahat olmayın, onlara heç kim dəyməz, elə qoyduğunuz yerdə də qalıb", – dedi. Düzü, inanmadım, ürəyimdə məni sakitləşdirmək üçün belə dediyini fikirləşdim. O isə dayanacaqdakı növbəti marşrutun sürücüsünə yaxınlaşıb hadisəni ona danışdı. O da "xala, narahat olmayın, indi tapılar", – deyib kiminləsə telefon əlaqəsi saxladı. Öyrəndim ki, burada sürücülər son dayanacaqda avtobusun içərisində unudulan əşyaları nəzarətçilərə təhvil verirlər. Və bir neçə dəqiqə keçməmiş çantam toxunulmamış vəziyyətdə digər marşrutla özümə qaytarıldı. Həmin sürücüyə şirinlik verməyə çalışsam da o, qəbul etməyib "borcumuzdur", – dedi.

64 yaşım var... Sovetlər dönəmində yoldaşımın işi ilə bağlı bir çox dövlətlərdə olmuşam. Çox olub, əşyalarımızı haradasa unutmuşuq. Amma heç vaxt onları tapa bilməmişik. İlk dəfə idi ki, belə bir hadisə ilə qarşılaşırdım. Başqasının əşyasına toxunmamaq mədəniyyəti ən böyük mənəvi zənginlik, dəyərdir. Mən bir ana kimi nəvəmin xidməti borcunu belə bir məkanda yerinə yetirdiyi üçün fəxr duyur və bu gözəl hissləri bizə yaşadanlara minnətdarlığımı bildirirəm.

**Nəzirə HƏSƏNOVA**
***Bərdə rayon sakini***

## Görünən kənd bələdçi istəməz

*Hörmətli redaksiya!*



Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyasının Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilməsi nəticəsində qədim diyar gündən-günə çiçəklənir, dövlət proqramlarının və infrastruktur layihələrinin reallaşdırılması yaşayış məntəqələrini abadlığa, inkişaf və tərəqqiyə qovuşdurur.

Yeni inkişaf mərhələsinə çıxan Şərur rayonunda da əhalinin rahat yaşayışının təmin olunması sahəsində həyata keçirilən tədbirlərin və insan amilinə verilən dəyərin nəticəsidir ki, quruculuq işləri ilbəil genişlənir. Uzun illərdir, muxtar respublikamızın kəndlərində aparılan quruculuq işlərinin şahidi olur və düşünürdüm ki, görəsən, bizim kəndimiz nə vaxt quruculuq günəşinin şəfəqlərinə qərq olacaq. Və o gün gəlib yetişdi. İndi yeni məktəbimiz, xidmət, kənd mərkəzlərimiz, gözəl yollarımız var. Kənddə yeni inşa olunan məktəbdə övladlarımız daha yaxşı təhsil ala bilirlər. Xidmət mərkəzində sakinlərə nümunəvi xidmət göstərilir. Abad yollarla istənilən vaxt şəhər və kəndlərimizə rahat gedib-gələ bilirik. İllər öncə buraya yol alan insan baxımsız, köhnə bir kənd görürdüsə, indi müasir bir Azərbaycan kəndinin gözəllikləri ilə qarşılaşır. Kəndimizin əvvəlki görünüşünü xatırlatmaq belə, çox üräksıxıcı gəlir və istər-istəməz bugünkü şəraitlə, axar-baxarlı, firavan həyatla qürur duyursan. Artıq sözə nə hacət? "Görünən kənd bələdçi istəməz". Hər bir sakinini düşünən rəhbərimiz, qurub-yaradan əllər var olsun.

**Əvəz NƏCƏFOV**
***Şərur rayonu, Yeni Havuş kənd sakini***

## Bu qayğının cavabı yalnız halal zəhmətdir



*Hörmətli redaksiya!*

Ulu öndərimiz Heydər Əliyev siyasətinin muxtar diyarımızda uğurla davam etdirilməsi Naxçıvanı çiçəklənən bir məmləkətə çevirib.

Mən Şahbuz rayonunun Türkeş kəndində doğulub boya-başa çatmışam və ömrümü bu kənddə keçirmişəm. Bu kəndsiz bir ayım, bir günüm belə, olmayıb. 66 yaşım var və təqaüdçüyəm. 20-25 il bundan əvvəlki yaşayışımızı gözlərim önünə gətirəndə bu günümüzə inana bilmirəm. Son illər muxtar respublikanın kənd yaşayış məntəqələrində aparılan kompleks quruculuq tədbirləri şəhərlə fərqi əsaslı surətdə aradan qaldırıb. Belə tədbirlərin həyata keçirildiyi qədim yurd yerimiz olan Türkeş də artıq müasir kəndə çevrilib. Təbii ki, bütün bunlar insanların qurub-yaratmaq əzminə öz təsirini göstərəcək.

Sevinc hissi ilə deyə bilərəm ki, bu il kəndimizin hər bir sakini kimi, mənim də yaddaşımda silinməz xatirə kimi qalacaqdır. Bizim üçün yaradılan müasir şəraitlə yanaşı, kənd avtomobil yolu yenidən qurulub. Həmçinin 350 hektaradək torpaq sahəsini əhatə edən qapalı suvarma şəbəkəsi istifadəyə verilib. Bütün bunlar kənd sakinlərinin rahat yaşayışının və məşğulluğunun təmin edilməsi üçün yaradılıb.

Mənim kənddə 2 hektara yaxın pay torpağım var. Bu torpaqda hər il ailəmlə birgə taxıl, tərəvəz əkirəm. Ancaq suvarma suyu sarıdan korluq çəkirdik. Əkinimizdən istədiyimiz qədər məhsul əldə edə bilmirdik. Yeni qapalı suvarma şəbəkəsi əvvəlki çətinliklərin qarşısını alıb. Biz kənd sakinləri göstərilən bu qayğıdan ruhlanaraq əkin-biçinimizi daha da artıracağıq, qızıldan qiymətli sərvətimiz olan torpağımızı əkib-becərərək bol məhsul toplayacağıq. Bu da bizə imkan verəcək ki, "Ailə təsərrüfatı məhsulları" festivallarında, kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında layiqincə iştirak edək. Çünki dövlətimizin bu qayğısının əvəzini ancaq bərəkətli torpaqlarımızda bol məhsul yetişdirməklə, halal zəhmətimizlə ödəyə bilərik.

**Şakir XUDİYEV**
***Şahbuz rayonu, Türkeş kənd sakini***

# Naxçıvan futbolunun yeni inkişaf mərhələsi

## *Federasiya qısa vaxtda nələrə nail olub*

***Naxçıvan Muxtar Respublikasında idmana və idmançılara xüsusi diqqət və qayğı ilə yanaşılır. Bu gün diyarımızda idmanın inkişafına, yeni idmançı nəslinin yetişdirilməsinə, idman infrastrukturunun yaxşılaşdırılmasına, müasir idman komplekslərinin tikintisinə, dünya və Avropa miqyaslı yarışlarda idmançılarımızın böyük uğurlar qazanmasına xidmət edən zəruri tədbirlərin görülməsinə dair sərəncamlar imzalanır, məqsədyönlü tədbirlər həyata keçirilir. Təbii ki, planetimizin ən mötəbər idman növü hesab edilən futbol da bu qayğıdan kənarda qalmır.***

### *Keçirilən müşavirədə verilən tapşırıqlar və...*

Ötən il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirədə Ali Məclisin Sədri tərəfindən nazirlik və dövlət qurumlarının qarşısına konkret tapşırıqlar qoyulmuşdu. Əsas vəzifə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin üzərinə düşsə də, Futbol Federasiyası, Təhsil Nazirliyi, idman federasiyaları, şəhər və rayon İcra hakimiyyətləri üçün də konkret tapşırıqlar müəyyənləşdirilmişdi. Muxtar respublikada bütün idman növlərinin inkişaf etdirilməsi, müxtəlif növlər üzrə muxtar respublika birinciliklərinin keçirilməsi, ölkə və beynəlxalq səviyyəli yarışların təşkil olunması, idmançılarımızın beynəlxalq yarışlarda iştirakının təmin edilməsi, mövcud stadionlardan səmərəli istifadə, eyni zamanda yerlərdə stadionların yenidən qurulması işinin davam etdirilməsi, yaradılan idman infrastrukturunun və ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin tədrisinə nəzarətin gücləndirilməsi, ümumilikdə, qarşıya qoyulan vəzifələr idi.

Verilən tapşırıqlardan da göründüyü kimi, muxtar respublikada idmanın inkişafı üçün zəruri məqamlar nəzərə alınıb. Səbəb isə bütün idman növlərinin sağlamlığa xidmət etməsi və asudə vaxtın səmərəli təşkilindəki roludur. Elə əhalinin bütün yaş qruplarının futbola olan marağının artırılması da bu zərurətdən irəli gəlir.





### *... federasiyanın atdığı ilk addım*

Artıq yekunlaşmaqda olan 2019-cu il Naxçıvan Futbol Federasiyasının tarixinə də əlamətdar hadisələrlə yazılıb. Federasiyada struktur dəyişikliyi bu idman növünə olan marağı muxtar respublikada birəbeş artırdı. İlk olaraq federasiyaya işin düzgün təşkili üçün bu sahəni dərindən bilən mütəxəssislər cəlb olundu. Futbolun inkişaf etdirilməsinin vacibliyini 3 istiqamət üzrə müəyyənləşdirildi: kütləvilik, infrastruktur və futbol təhsili.

Federasiya muxtar respublikada idmanın digər növləri kimi, futbolun da inkişafına göstərilən hərtərəfli dövlət qayğısından, yaradılan şəraitdən səmərəli istifadə etmək vəzifəsini layiqincə yerinə yetirmək üçün əsas prioritet istiqamətləri müəyyənləşdirdi. Futbol sahəsində yerli mütəxəssislər hazırlamaq, uşaq və yeniyetmələri yeni təşkil olunan məşqlərə dəvət etmək, ehtiyat futbolçu bazası yaratmaq, maarifçilik, təbliğat işini gücləndirmək həmin prioritet məsələlərə daxil idi.

### *Beşillik inkişaf proqramı*

Hazırda muxtar respublikanın şəhər və rayonlarında futbol bazalarının vəziyyəti, onların maddi-texniki təchizatlarının yüksək səviyyədə olması, məktəblərdə stadionların yaradılması, kəndlərdə yeni stadionların tikilməsi futbolun inkişafına, futbolçu ehtiyatının formalaşmasına zəmin hazırlayır. Diyarımızda idmanın bu növünün kütləvi inkişafı, uşaq, yeniyetmə və gənclər arasında onun təbliği, beynəlxalq səviyyəli futbolçuların hazırlanması məqsədilə federasiya 5 il (2019-2024) üçün proqram tərtib edib. Bu proqrama əsasən qarşıdakı ən böyük məqsəd muxtar respublikada uşaq futbolu üzrə liqanın keçirilməsinin təməlini qoymaq, eyni zamanda böyüklər arasında çempionat, kəndlər arasında isə həvəskar çempionatların təşkilidir. Buna müəyyən qədər nail olunub. Həmçinin məktəb komandalarının muxtar respublika birinciliyi, dövlət idarələri və könüllü komandalar arasında da Naxçıvan Futzal Liqası keçirilir.

Proqrama əsasən hakimlərin təlim-məşq toplanışları aparılır, beynəlxalq dərəcəli hakimlər kurslar və seminarlar keçmək üçün muxtar respublikaya dəvət olunurlar. Növbəti il üçün isə əsas hədəf uşaq futbolunda yaşlar üzrə keçirilən liqaların sayının artırılması, muxtar respublikanın əsas komandasının Azərbaycan çempionatında çıxışına nail olmaq və əvəzedici komandanın yaradılmasıdır.

Proqramın növbəti ilində əsas komanda ölkə birinciliyində çıxışını davam etdirməlidir. Digər mövsümlə müqayisədə əsas hədəf çempionatı ilk 3 pillədə başa vurmaq və qarşıdakı ili yüksək dəstədə keçirməkdir. Muxtar respublikanı təmsil edən uşaq komandalarından ən azı biri ölkə birinciliyində mükafat qazanmalı, digər yaş qruplarında çıxış edənlər Azərbaycanın milli komandalarına cəlb olunmalıdır.

Plana əsasən proqramın son iki ilində futbolçuların daha çox beynəlxalq turnirlərdə iştirakı, uşaq komandalarının ölkə birinciliklərində mübarizəsi öz əksini tapıb.

Proqram cəmiyyətdə sağlam həyat tərzi prinsiplərinin aşılanmasına, muxtar respublikada futbolun məhəlli və regional inkişafına, bu idman növü ilə məşğul olacaq uşaq, yeniyetmə və gənclərin sayının artmasına, onların bu idmana cəlbinə, beynəlxalq arenada Naxçıvan Muxtar Respublikasının təmsil edilməsinə və beynəlxalq səviyyəli peşəkar futbolçuların hazırlanmasına nail olmaq məqsədi daşıyır.

### *Bəhrəsini verən işlər*

İşini günün tələblərinə uyğun şəkildə quran federasiya ilk yığıncağında prioritet məsələnin uşaq futbolu olduğunu məşqçilərin və futbol ictimaiyyətinin diqqətinə çatdırdı. Uşaqların futbol biliklərinin artırılması məqsədilə Azərbaycan Futbol Federasiyaları Assosiasiyası ilə birlikdə təcrübəli məşqçilər muxtar respublikamıza dəvət olundu. "Araz-Naxçıvan"ın "sükanı arxası"na gətirilən Əsgər Abdullayev eyni zamanda federasiyanın böyük məşqçisi təyin edildi. Təyinatdan sonra Əsgər Abdullayev muxtar respublikanın şəhər və rayon komandalarında futbolçular və məşqçilər üçün məşqlər keçməyə başladı. Seçimlərdən öncə Naxçıvanın 13-14 yaşlı futbolçularından ibarət yığma komandası formalaşdırıldı, ardınca onların təlim-məşq toplanışı keçirildi. Səbəb isə ilk dəfə olaraq 13-14 yaşlı futbolçular arasında beynəlxalq turnirin təşkili idi.



Şəhər və rayonlarda əsas komandaların formalaşması yönündə də işlər davam etdirildi və növbəti muxtar respublika çempionatı təşkil olundu. Uşaq futbolunda isə köklü dəyişikliklər qazanılan uğurlarda öz bəhrəsini göstərdi. İlk dəfə olaraq keçiriləcək U-10 – U-14 yaşlı futbolçular arasında Naxçıvan Muxtar Respublika çempionatlarında çıxış edəcək komandalar rəsmi olaraq AFFA-nın (UEFA-nın reqlamentinə əsasən) qeydiyyatından keçdi. Region Liqasında mübarizə aparan böyüklərdən ibarət komandalara da eyni proses tətbiq olundu. Futbolçuların, məşqçilərin və digər texniki işçilərin qeydiyyat sistemi yaradıldı və bu proses uğurla davam etdirilir. Bir il öncə bu sistemdə qeydiyyata alınanların sayı 200-ə yaxın olduğu halda, indi Naxçıvan "futbol ailəsi"nin qeydiyyatdan keçmiş üzvlərinin sayı mindən çoxdur. AFFA diyarımızda kütləvi futbolla bağlı çoxsaylı tədbirləri yüksək qiymətləndirərək mütəmadi olaraq Naxçıvan Futbol Federasiyası ilə birgə layihələr həyata keçirir. Bu sırada futbolun təbliğatının da xüsusi əhəmiyyəti var. Yaxın günlərdə federasiyanın yeni internet saytı da fəaliyyətə başlayacaq.

Futbol Federasiyasının prioritet məsələlərindən olan kütləvilik bu gün özünü müsbət yöndə göstərməkdədir. İlk dəfə olaraq muxtar respublikada fəaliyyət göstərən dövlət və özəl təşkilatlar arasında keçirilən futzal liqasında 24 komandanın mübarizə aparması federasiyanın təbliğat işindən xəbər verir.

Proqrama əsasən futbol hakimlərinin yetişdirilməsi sahəsində mühüm işlər görülüb. Hazırda federasiyada 30-a yaxın ədalət təmsilçisi fəaliyyət göstərir ki, bu da muxtar respublikada gənclərin işlə təmin olunması baxımından mühüm addımdır. Hakimlərin nəzəri və praktik biliklərini artırmaq məqsədilə hər həftənin şənbə və bazar günləri AFFA-nın Hakimlər Komitəsinin üzvü olan beynəlxalq dərəcəli referilər Naxçıvana səfər edir, təlimlər, seminarlar keçirirlər.

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) Hakimlər Komitəsinin sədri avstriyalı Fritz Stuxlikin hakimlər üçün seminar keçmək məqsədilə muxtar respublikamıza səfərinin təşkili isə Naxçıvanda bu idman növünün inkişafına dövlət qayğısının növbəti ifadəsidir.

Futbolda təhsilin əhəmiyyəti nəzərə alınaraq bu istiqamətdə də bir çox işlər görülüb. Orta məktəblərdə idman müəllimləri üçün yerli federasiya, Təhsil Nazirliyi və AFFA tərəfindən "D" lisenziyası verən kurs təşkil olunub. Kursda 30 məşqçi-müəllim iştirak edib. Avropa Futbol Assosiasiyaları İttifaqının (UEFA) uşaq futbolu ilə bağlı layihəsi – "Grassroots" proqramına əsasən ölkə ərazisində "kütləvi futbol həftəsi" və eyni zamanda proqrama daxil olan "Futboldan həzz al!" layihəsinin Naxçıvanda reallaşması da böyük futbol bayramına çevrildi.

İstedadlı futbolçuların yetişdirilməsi prosesində infrastrukturun özünəməxsus rolu var. Daha dəqiq ifadə etsək, müasir standartlara cavab verən meydança olmadan güclü futbolçunu da yetişdirmək mümkün deyil. Bunlar nəzərə alınaraq muxtar respublikamızın hər bir yerində, ilk növbədə, yeni stadionlar inşa olunur, köhnələri isə bərpa edilir. Məktəblərdə futbolun təbliğinin aparılması üçün istedadlı uşaqlar şəhər və rayonlarda təşkil edilən məşqlərə dəvət olunurlar.

### *Nəticə...*

Futbol özündə insanların sevdiyi bir çox şeyləri birləşdirir: ayaqlarla bərabər intellektin çalışmasını, hər oyunda yeniliklərlə qarşılaşmanı, strateji düşüncəni, taktiki-texniki gedişatı, qalib və məğlub olmaq hissini... Futbol hər zaman ona diqqət və qayğı ilə yanaşılmağı sevir. Muxtar respublikamızda idmanın bu növünün inkişafı istiqamətində uğurlu idman siyasətinin həyata keçirilməsi ilə daha böyük nailiyyətlər əldə ediləcək zamanın uzaqda olmadığını deyə bilərik...

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası üzrə 24 dekabr 2019-cu il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| S/ № | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 3804,0 | 3364,0 | 440,0 |
| 2. | Babək rayonu | 10980,0 | 7580,0 | 3400,0 |
| 3. | Ordubad rayonu | 1656,0 | 670,0 | 986,0 |
| 4. | Culfa rayonu | 7410,0 | 6380,0 | 1030,0 |
| 5. | Kəngərli rayonu | 5155,0 | 2997,0 | 2158,0 |
| 6. | Şahbuz rayonu | 1416,0 | 1330,0 | 86,0 |
| 7. | Sədərək rayonu | 2256,0 | 1621,0 | 635,0 |
| 8. | Naxçıvan şəhəri | 968,0 | 842,0 | 126,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **33645,0** | **24784,0** | **8861,0** |

# Muzeyləri 63 mindən artıq tamaşaçı ziyarət edib

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və tabe müəssisələr tərəfindən noyabr ayında konsert proqramları təşkil edilmiş, sərgilər nümayiş olunmuş, tarixi və əlamətdar günlərlə, tanınmış şəxsiyyətlərin yubileyləri ilə əlaqədar tədbirlər, ustad və açıq dərslər keçirilmişdir.***

Ötən ay "Ritmi hiss et, sən də qatıl" rəqs müsabiqəsinin final turu və yekun tədbiri olmuş, Naxçıvan Müəllimlər İnstitutu ilə birgə ali və orta ixtisas təhsili müəssisələrində fəaliyyət göstərən tələbə teatr studiyaları arasında festival-müsabiqə təşkil edilmişdir. Həmçinin "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı yaradılmış "Əllə toxunmuş xalçaların reyestri sistemi"nə daxil edilmək üçün 6 xalça haqqında məlumatlar hazırlanmışdır. Artıq ənənə halını almış muzeylərə eksponat hədiyyə edilməsi işi noyabr ayında da davam etdirilmiş, bu mədəniyyət müəssisələrinə 135 yeni eksponat daxil olmuş, muxtar respublika muzeylərini 63 min 504 tamaşaçı ziyarət etmişdir. Onlardan 12 min 90-ı əcnəbi vətəndaş olmuşdur.

Muxtar respublikada fəaliyyət göstərən kitabxanalarda yeni oxucu sayı 340, oxucu gəlişi 9110 nəfər, kitab verilişi isə 15 min 739 nüsxə olmuş, elektron kitabxanadan 428 oxucu istifadə etmişdir. Naxçıvan Dövlət Film Fondu tərəfindən "Azərbaycan Kinosu Günü" layihəsi çərçivəsində muxtar respublikanın müxtəlif yaşayış məntəqələrində Azərbaycan filmləri nümayiş olunmuş, ümumtəhsil məktəblərinin şagirdlərinə Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı sənədli filmlər göstərilmişdir.

Hesabat dövründə nazirliyin tabeliyində olan teatrlar tərəfindən də fəaliyyət istiqaməti üzrə işlər davam etdirilmiş, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Elçinin "Teleskop" və A.S.Qriboyedovun "Ağıldan bəla" əsərlərinin məşqləri aparılmış, Sədərək, Şərur və Ordubad rayonlarında "Ölülər və dəlilər" tamaşası nümayiş etdirilmişdir. Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı "Qaraca qız" və "Qar kraliçası" tamaşalarının məşqlərini davam etdirmiş, 11 tamaşa ilə teatrsevərlərin qonağı olmuşdur. Naxçıvan Dövlət Uşaq Teatrında "Mavi işıq" tamaşası hazırlanmış, Naxçıvan Şəhər Xalq Teatrı "Arzum çin oldu", Babək Rayon Xalq Teatrı "Tamahkar", Şərur Rayon Xalq Teatrı "Lənkəran xanının vəziri", Ordubad Rayon Xalq Teatrı isə "Axirətdən gələn zəng" tamaşalarının məşqlərini davam etdirmişdir.

Ötən ay nazirliyin hamiliyinə verilmiş ixtisaslarda təhsil alan və tabe müəssisələrdə çalışan gənclərin Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyinə ekskursiyaları təşkil olunmuş, "Müasir gənclik və mədəniyyətimiz" devizi altında "Mədəni irs" intellektual oyunu keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

İbrahimov Həsən Kazım oğlunun adına olan "Vüsalə" kiçik müəssisəsinə məxsus 006378 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 881